

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 95 (21.505)

25 may 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Suma Çakrabartini yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsi münasibətilə təbrik edib və onun bu vəzifəyə təkrar seçilməsini gördüyü işlərə verilən qiymət kimi dəyərləndirərək ona fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uzun illər mövcud olan əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin ölkəmizə səfərinin məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirib.

Suma Çakrabarti Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edib. O, rəhbərlik etdiyi qurum ilə Azərbaycan arasında tərəfdaşlığın getdikcə daha da gücləndiyini məmnunluqla vurğulayaraq son illər özəl sektora, xüsusilə qeyri-neft sektoruna qoyulan sərmayələrin artdığını deyib.

Görüşdə nəqliyyat, energetika, kənd təsərrüfatı, özəl sektor, sahibkarlıq və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

## 28 May – Respublika Gününə həsr olunmuş tədbir

***Naxçıvan Tibb Kollecində 28 May – Respublika Günü münasibətilə tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə kollecin direktor əvəzi Mehri Seyidbəyli açaraq bildirib ki, xalqımız həmişə azad və müstəqil dövlətin vətəndaşı olmaq ümidini yaşadıb və bu yolda çətin mübarizələrdən keçib. Ötən əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu müstəqillik çox qısa zamanda itirilmək təhlükəsi ilə üzüzə qalıb. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələblərindən sonra hakimiyyətə qayıdışı qanımız bahasına əldə etdiyimiz müstəqilliyimizin qorunub saxlanılmasını təmin edib. Ulu öndər böyük çətinliklər hesabına müstəqilliyimizin möhkəmləndirilməsinə, onun sarsılmaz və əbədi olmasına nail olub. Müstəqilliyimizin bəhrələridir ki, indi Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib.

Sonra kollecin müəllimlərindən Zəminə İsmayılova "Şərqdə ilk demokratik respublika", Rəna Vəliyeva "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 96 il ötür", Xanım Kazımova "Müstəqil dövlətimizin qurucusu və banisi" mövzularında məruzələr ediblər.Vurğulanıb ki, 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycanın Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı.

Sonra tələbələrdən Gülnaz Qasımova, Aynurə İsmayılova, Rübabə Məmmədova 28 May – Respublika Gününə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

## Mülki Müdafiə Alayında andiçmə mərasimi keçirilib

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, üçrəngli bayrağımız meydana gətirilib. Sonra taqımlar şəklində tribunanın önündə düzülən gənc əsgərlər əllərini silahın üzərinə qoyaraq vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarına şərəflə əməl edəcəklərinə and içiblər.

Mərasimdə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, baş leytenant Nicat Qafarov gənc əsgərləri bu əhəmiyyətli gün münasibətilə təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Valideynlər adından çıxış edən Arzuman Yusifov bu günün onda böyük qürur hissi doğurduğunu deyib, bütün valideynlərin vətənin müdafiəçiləri olan övladları ilə fəxr etdiyini bildirib.

Gənc əsgərlər adından çıxış edən Tural Şıxəliyev nümunəvi xidmətləri ilə hərbi hissənin adını daim yüksək tutacaqlarını, baş verə biləcək fövqəladə hallar zamanı əllərindən gələni əsirgəməyəcəklərini bildirib.



Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov ölkəmizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda Silahlı Qüvvələrimizin rolundan danışıb, gənc əsgərlərə və onların valideynlərinə xoş arzularını çatdırıb.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

***Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı bütün sahələri əhatə edir. Son illərdə nəzərəçarpan dəyişikliklərdən biri də muxtar respublikamızın şəhər və qəsəbələrində yeni yaşayış binalarının tikilməsi, mövcud binaların yenidən qurulmasıdır.***

## Naxçıvan şəhərində daha iki yaşayış binasında yenidənqurma işləri aparılır





Ötən müddətdə bu sahədə görülən işlər muxtar respublika paytaxtında da əhəmiyyətli dəyişikliklərə səbəb olub. Belə ki, paytaxt Naxçıvan şəhərində yeni yaşayış binaları tikilib, mövcud binalarda əsaslı şəkildə yenidənqurma işləri aparılıb. Bu istiqamətdə görülən işlər cari ildə də davam etdirilir.

Hazırda Naxçıvan şəhərindəki "İstiqlal" küçəsində 99 nömrəli yaşayış binasında əsaslı yenidənqurma işləri aparılır. Zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olan binanın özülü bərkidilib, eni 3 metr artırılıb. Artırılan hissədə beton-qəlib sütunların hündürlüyü 3-cü mərtəbəyədək qaldırılıb, binanın digər hissələri isə birinci mərtəbəyədək üzlük travertin daşla üzlənib. Hazırda zirzəmi hissədə və binanın daxilində suvaq işləri aparılır, kommunikasiya xətləri yenilənir, pilləkənlərə daş döşənir. Yaxın zamanlarda pəncərələr dəyişdiriləcək, dam örtüyü yenilənəcək, binanın künclərı boyunca ucaldılmış beton-qəlib sütunlar və pəncərələrin kənarları üzlük daşla müasir memarlıq üslubunda işlənəcəkdir.

Yenidənqurma işlərindən pay düşən yaşayış binalarından biri də Əziz Əliyev küçəsində yerləşir. Buradakı 41 nömrəli beşmərtəbəli binanın zirzəmisi qısa müddətdə təmizlənib, hazırda suvaq işləri aparılır. Eyni zamanda binanın fasad hissəsində və blokların daxilində suvaq işləri davam etdirilir, elektrik, qaz, su, rabitə xətləri dəyişdirilir. Qısa müddətdə bu binanın da pəncərələri dəyişdiriləcək, fasad hissə müasir memarlıq nümunələrindən istifadə olunmaqla bəzədiləcəkdir.

Qeyd edək ki, hər iki yaşayış binasının yenidən qurulmasında "Dizayn İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları çalışırlar. İşlər başa çatdırıldıqdan sonra bu yaşayış binaları burada yaşayan sakinlərin rahatlığını təmin etməklə bərabər, şəhərimizə də gözəllik verəcək.

**Xəbərlər şöbəsi**

## Daşınmaz əmlakın qeydiyyatının sadələşdirilməsi istiqamətində işlər davam etdirilir

***Muxtar respublikada müasir tələblərə uyğun çevik idarəetmə nəticəsində yerlərdə vətəndaşlara göstərilən hüquqi xidmətlərin sayı artırılıb, göstərilən xidmətlərin keyfiyyəti yüksəldilib, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasına nail olunub.***

Ötən il 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə Ali Məclisin Sədri tərəfindən aidiyyəti qurumlara müvafiq xidmətlərin səyyari qaydada göstərilməsinin təmin edilməsi ilə bağlı verilən tapşırıqlar vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsində mühüm rol oynayıb. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən müvafiq tədbirlər həyata keçirilib, maddi-texniki baza yaradılıb. Səyyari xidmətin göstərilməsi üçün komitənin mərkəzi aparatından və rayon idarələrindən mütəxəssislər cəlb edilib.

Səyyari xidmət zamanı vətəndaşlara daşınmaz əmlak üzərində əvvəllər yaranmış hüquqlarla bağlı verilmiş mülkiyyət sənədlərinin – torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrin, dövlət aktlarının, qeydiyyat vəsiqələrinin daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilməsi, daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr və vərəsəlik hüququ haqqında şəhadətnamələr əsasında hüquqların qeydiyyata alınması, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış əmlaklara məhdudiyyət və yüklülüyə dair arayışların verilməsi, daşınmaz əmlakın texniki pasportunun və torpaq sahəsinin planölçüsünün hazırlanması üçün sənədlərin qəbulu aparılır.

Yaşadıqları ərazidə vətəndaşların ərizələri qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilir. Qəbul edilmiş sənədlər komitənin rayon idarələri tərəfindən elektron sistemə daxil edilir, texniki sənədlər hazırlanır. Mülkiyyət obyektləri daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır, çıxarışlar hazırlanır və qısa müddət ərzində yerlərdə vətəndaşlara çatdırılır.

Fəaliyyət göstərdiyi dövr ərzində Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin səyyari xidmət qrupu muxtar respublikanın ucqar kənd yaşayış məntəqələrində əhaliyə səyyari xidmət göstərilməsini təmin edib. Ümumilikdə, 2015-ci ildə səyyari xidmət vasitəsilə muxtar respublikanın 85 yaşayış məntəqəsindən 1502 müraciət qəbul edilib. 2016-cı ilin ötən dövrü ərzində isə muxtar respublikanın 37 yaşayış məntəqəsində vətəndaşlara səyyari xidmət göstərilib, xidmət zamanı 443 müraciət qəbul edilərək müvafiq qaydada baxılıb.

Səyyari xidmət zamanı işlərin planauyğun və operativ təşkili məqsədilə hər ay üçün iş qrafiki tərtib edilir, rayon icra hakimiyyətlərinə göndərilir, xidmət göstəriləcək ünvanlarda 5 gün əvvəl elanlar vurulması təmin edilir və sakinlər arasında maarifləndirmə işləri aparılır.

Səyyari xidmət zamanı ahıl, sağlamlıq imkanları məhdud insanlara onların yaşadıqları ünvanlarda xidmət göstərilir. Qeyd etmək lazımdır ki, əhaliyə səyyari xidmətlərin göstərilməsi muxtar respublikada daşınmaz əmlak bazarının aktivləşməsinə, daşınmaz əmlakın iqtisadi proseslərə cəlb olunmasına böyük təkan verir. Bundan başqa, səyyari xidmətin təşkili yerlərdə vətəndaşların müraciətlərini operativ şəkildə cavablandırmağa, vaxta qənaət etməyə, vətəndaşların şəhər və ya rayon mərkəzlərinə getmədən müraciətlərinin yerində və qısa zamanda həll edilməsinə imkan yaradıb.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Ümummilli lider Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu

***XX əsrdə Azərbaycan xalqına öz dövlət müstəqilliyini iki dəfə bərqərar etmək nəsib olmuşdur. Təxminən bir əsrlik müstəmləkə həyatından sonra 1918-ci ildə elan edilən istiqlaliyyət cəmi 23 ay hökm sürsə də, 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa ediləndə artıq 1970-1980-ci illərdə müstəqilliyin sosial-iqtisadi və maddi-mənəvi əsasları yaradılmışdı. Bu təməl xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə tariximizə qızıl hərflərlə yazılmış intibah mərhələsində qoyulmuşdu.***



Hələ 1969-cu il iyulun 14-də ulu öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən öz sələfindən ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqaların baş alıb getdiyi, sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış aqrar ucqar kimi xarakterizə olunan bir respublikanın idarəçiliyini təhvil almışdı.

Ulu öndər Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib heç nədən qorxmadan, böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdi. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən ümummilli liderimiz Heydər Əliyev respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər – 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üçcildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək: ***"Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində beynəlxalq aləmdə yaranmış yeni tarixi şəraiti ingilis filosofu A.Toyubinin sözləri ilə ifadə etmək düzgün olardı: "Biz elə bir dövrdə yaşayırıq ki, tarix hamımıza meydan oxuyur". Məhz bu məqamda ümummilli lider öz siyasi varlığının bütün nəhəngliyi ilə yenidən meydanda görünmüş, hamıdan fərqli olaraq tarixə meydan oxumağa başlamışdır. Müstəqillik ab-havasının duyulduğu bir vaxtda Azərbaycanı yenidən müstəmləkə həyatına sürükləməyə cəhd edənləri və müstəqilliyin ilk illərində ölkəmizi sosial-iqtisadi böhrana və ictimai-siyasi anarxiyaya düçar edən psevdodemokratları siyasi səhnədən xalqa arxalanaraq uzaqlaşdıran, tarixin arxivinə göndərən ulu öndər Heydər Əliyev özünün yaratdığı sosial-iqtisadi və mənəvi-siyasi potensial üzərində müstəqil Azərbaycan dövlətini ucaltmışdır.

1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iki gün sonra isə Naxçıvana qayıdan ulu öndər Azərbaycanın xilası yoluna muxtar respublikadan başlamışdır. Həmin il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Onun təşəbbüsü ilə qəbul edilən tarixi qərarlar müstəqil dövlətçiliyin məhz Heydər Əliyevin liderliyində qurula biləcəyinin sübutu idi. Ümummilli liderin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi böyük liderlik fəaliyyəti bu tarixi həqiqətin dəfələrlə təsdiq edilməsi faktları ilə zəngin olmuşdur. Yenicə müstəqillik əldə etmiş dövlətimizin dünya miqyasında təkləndiyi, xalqın müstəqilliyə olan ümidlərinin ölkə rəhbərliyi tərəfindən tamamilə məhv edildiyi bir dövrdə ulu öndər məhz Naxçıvanda müstəqillik atributlarını bərpa edirdi. Muxtar respublikanı blokadanın çətinliklərindən qurtarmaq, böyük mənada isə ölkəmizin beynəlxalq aləmlə əlaqələrini təmin etmək, müstəqilliyimizin gələcəyinə inam yaratmaq üçün Azərbaycanı qardaş Türkiyə ilə birləşdirən "Ümid körpüsü" salınmışdır. Paytaxt Bakıda ən müxtəlif antimilli siyasi qruplaşmalar arasında hakimiyyət uğrunda amansız mübarizənin getdiyi bir vaxtda ulu öndər Heydər Əliyev yeni tarixi zamanda xalqımızın yekdil dəstəyini qazanaraq Azərbaycan dövlətçiliyini quracaq, müstəqilliyin qarantı rolunda çıxış edə biləcək ümummilli siyasi təşkilatı – Yeni Azərbaycan Partiyasını yaratmışdır.

Belə bir vəziyyətdə obyektiv tarixi zərurətin diktəsi, ictimai-siyasi hadisələrin axarı və xalqın böyük təkidi nəticəsində 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı reallaşdı. Cəmi iki il ərzində sosial-iqtisadi böhranı aradan qaldırmağa, Azərbaycanı parçalanmaqdan xilas etməyə, vətəndaş müharibəsinə son qoymağa, nizami milli ordu yaratmağa, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs əldə etməyə, qeyri-qanuni silahlı birləşmələri tərk-silah edərək dayanıqlı ictimai-siyasi sabitlik yaratmağa nail olan ulu öndər 1996-cı ildən ölkədə böyük quruculuq işlərinə başlamışdır. 1993-2003-cü illər Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini təmin etmək üçün zəruri əsasların bərqərar olması, müstəqil Azərbaycan dövlətinin yeni Konstitusiyasının qəbul edilməsi, demokratik dövlətin zəruri hüquqi bazasının yaradılması, iqtisadi islahatlara başlanılması, birinci özəlləşdirmə proqramının, torpaq islahatının başa çatdırılması, sahibkarlığın inkişafı üçün əlverişli şəraitin, beynəlxalq iqtisadi münasibətlərə inteqrasiyanın əsaslarının yaradılması dövrü olmuşdur. Bunların hamısının əsasında isə dahi öndərin uğurla hazırlayıb həyata keçirdiyi yeni neft strategiyası və yaxşı işlənib hazırlanmış çoxvektorlu xarici siyasət dayanırdı.

Azərbaycanda demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun memarı ulu öndər Heydər Əliyevdir. Ölkəmiz qısa müddətdə bütün insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmin edildiyi müasir dövlətə çevrilmişdir. 1998-ci il fevralın 10-da bütün Şərq xalqlarının tarixində ilk dəfə olaraq məhz Azərbaycanda ölüm hökmü ləğv edilmiş, həmin il aprelin 6-da isə mətbuat üzərində senzura aradan qaldırılmışdır.

ABŞ dövlət xadimi, məşhur politoloq Z.Bjezinski deyirdi: "Heydər Əliyev XX əsrin ən görkəmli siyasətçilərindən biridir. Siyasi hədəfləri düzgün seçməsi və böyük ruh yüksəkliyi ilə rəhbərlik etməsi Heydər Əliyevi tarixi şəxsiyyətlərdən Corc Vaşinqton və Avraam Linkolnla, müasir dövlət xadimlərindən isə Çörçill, Ruzvelt və Şarl de Qolla bir sıraya çıxarır. Onun uzaqgörənliyi və fitri qabiliyyəti, fəhmi və qətiyyəti olmasaydı, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı".

Məhz ümummilli lider Heydər Əliyevin siyasi konsepsiyası və dövlətçilik nəzəriyyəsi Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarını təşkil edərək onun özü tərəfindən yaradılan müstəqilliyin möhkəm təməlləri üzərində real həyata vəsiqə almış, ölkəmizin hərtərəfli inkişafı və əbədi istiqlaliyyəti üçün alternativsiz yola çevrilmişdir. 2003-cü ildən üzübəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu dövlətçilik yolu müasir, XXI əsr Azərbaycanının simasını müəyyən etmiş, ölkəmizin dünya dövlətləri arasında özünəməxsus yerini və beynəlxalq siyasətdə rolunu müəyyənləşdirmişdir.

2003-cü ildə Azərbaycanın valyuta ehtiyatları 1,6 milyard ABŞ dolları idisə, indi bu rəqəm 50 milyard dollardan çoxdur. Azərbaycanda ümumdaxili məhsul istehsalı 2003-cü ildən ötən dövrdə 7 dəfədən çox artaraq 2015-ci ildə 54 milyard manatdan çox olmuşdur. Bu müddətdə ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 170 milyard dolları ötmüş, 1,3 milyon iş yeri açılmışdır ki, bunun da bir milyondan çoxu daimi iş yeri olmuşdur. Ölkədə yoxsulluq və işsizlik səviyyəsinin on dəfə azalaraq 5 faizə düşməsi dövlətimizin sosialyönümlü siyasətinin başlıca nəticələrindəndir.

Azərbaycan regionda yalnız siyasi və iqtisadi baxımdan deyil, hərbi cəhətdən də ən güclü dövlətlərdən birinə çevrilmişdir. 2004-cü ildə Azərbaycanın dövlət büdcəsində müdafiə xərclərinə cəmi 180 milyon manat ayrılmışdısa, 2015-ci ildə bu rəqəm 21 dəfə artaraq 3,8 milyard manat təşkil etmişdir.

Azərbaycan Respublikasının 155 ölkənin dəstəyini qazanaraq 2011-ci il oktyabr ayının 24-də BMT Təhlükəsizlik Şurasına 2012-2013-cü illər üzrə qeyri-daimi üzv seçilməsi ölkəmizin uğurlu xarici siyasətinin kulminasiya nöqtəsi olmuşdur. 2013-cü il fevral ayının 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin orbitə çıxarılması, Avropa Olimpiya Komitəsi tərəfindən 2015-ci ilin iyun ayında Avropada ilk Olimpiya Oyunlarının Bakıda keçirilməsi tarixi hadisə və ölkəmizin böyük uğuru olmaqla yanaşı, həm də Azərbaycanın dünyada artan nüfuzunun göstəricisidir.

Heç şübhəsiz ki, bütün bu nailiyyətlər Azərbaycanda ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu siyasətinin davam etdirilməsi nəticəsində mümkün olmuşdur. Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyinə, əbədiliyinə istiqamətlənmiş milli dövlətçilik nəzəriyyəsinin başlıca prinsiplərini Azərbaycan Prezidenti cənab İlham Əliyev belə müəyyənləşdirmişdir: ***"Biz bilirik nə istəyirik, biz bilirik hansı məqsədlərə doğru gedirik. Bizim siyasətimiz açıqdır, aydındır, atılan addımlarımız düzgün istiqamətdədir və məqsədimiz ölkəmizi daha da gücləndirmək, dünyada Azərbaycanın mövqelərini möhkəmləndirməkdir. Bizim siyasətimiz Heydər Əliyev siyasətidir, Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız Azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq".***

***Bu il 25-ci ildönümünü qeyd edəcəyimiz müstəqil Azərbaycan ulu öndərimiz Heydər Əliyevin şah əsəridir. Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir, sarsılmazdır. Müstəqillik xalqımızın ən böyük sərvəti, ən böyük nemətidir. Bu müstəqilliyi isə bizə ulu öndərimiz bəxş etmişdir. Ona görə də nə qədər Azərbaycan var, Heydər Əliyev də var olacaqdır.***

**Elman CƏFƏRLİ**
*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri,*
*tarix üzrə fəlsəfə doktoru*

*Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası tarixən özünün elmi-ədəbi mühiti, yetişdirdiyi görkəmli şəxsiyyətləri, ictimai-siyasi xadimləri, hərbçiləri və sənət adamları ilə məşhur olmuşdur. Ən diqqətəlayiq işlərdən biri yuxarıda ümumən sadaladığımız bu görkəmli şəxsiyyətlər barəsində araşdırmalar aparıb onlar haqqında dolğun və real məlumatlar verməkdir.*

*Axtarışlar, tapıntılar*

# Bu fotoşəkil kimindir:
## *İsmayıl xanın, yoxsa İsmayıl ağanın?*

Qeyd etmək yerinə düşər. Sovet hakimiyyəti illərində belə araşdırmalar aparmaq mümkün deyildi. Ən böyük əngəl senzuranın olması idi. Yəni tarixi şəxsiyyətlər, o cümlədən hərbçilər haqqında ətraflı yazmağa icazə verilmirdi. Hətta çoxlarının adlarını belə, çəkmək qadağan idi. Ona görə də tarixən çox zəngin olan hərb tariximizin bir çox səhifələri hələ də açılmamış qalır. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra dövlətimizin qayğısı və diqqəti sayəsində hərb tariximiz də dərindən və ətraflı tədqiq edilməkdədir. Hərb tariximizdə naxçıvanlı hərbçilərin böyük xidmətləri olmuşdur.

Belə hərbçilərdən biri də İsmayıl ağa Novruz ağa oğlu Kəngərlidir. O, Naxçıvan kəngərlilərinin vəkil-sultan qolunu zənginləşdirən məşhur hərbçi, süvari I Kərim Sultanın varislərindəndir. I Kərim Sultan Səfəvi imperiyasında, II Şah Abbasın hakimiyyəti dövründə böyük sərkərdə kimi ad çıxarmışdı. Sonralar onun varisləri Eyvazalı bəy, Şahnəzər bəy, Tərxan bəy, Qara bəy və Baba bəy öz dövrlərinin adlı-sanlı süvariləri olmuşlar. Arxiv sənədlərindən məlum olur ki, sərkərdə Baba bəyin oğlu Əliməmməd bəy Naxçıvan süvarilərinin hərbi rəisi vəzifəsini daşımışdır. Onun vəfatından sonra oğlu II Kərim Sultan hərbi rəis vəzifəsini çox ləyaqətlə davam etdirmişdir. O həm də Naxçıvanın Kəngərli tayfasının vəkili idi.

XVIII əsrin ortalarında yaranan Naxçıvan xanlığının qoşunlarına hərbi rəisliyi II Kərim Sultanın oğlu Lütfəli Sultan etmiş və Şərqdə döyüş bacarığı ilə şöhrət qazanmışdı. Hətta o, bir vaxtlar Naxçıvan xanlığında eşikağası vəzifəsini də icra etmişdir. Maraq naminə deyək ki, II Kərim Sultanın digər oğlanları da – Nəzər Sultan, Fətəli Sultan, Hacıvəli bəy, İsmayıl bəy, Məmmədhüseyn bəy, Kazım bəy, Xudaverdi bəy, Əliməmməd ağa, Mustafa Sultan – mahir hərbçilər olmuşlar. İstər farsdilli, istərsə də rusdilli arxiv sənədlərində də bunlar haqqında maraqlı faktlar, qeydlər vardır.

1831-ci ildə çar hökumətinin göstərişi ilə Naxçıvan şəhərinin əhalisi siyahıya alınmış, yəni kameral təsvir yazılmışdır. Bu kameral siyahılarda Lütfəli Sultanın oğlu məşhur hərbçi Novruz ağa və ailəsi haqqında məlumatlar vardır. Kameral siyahıda onun 50 yaşının olması qeyd edilmişdir. Bu qeydə görə deyə bilərik ki, Novruz ağa 1780-1781-ci illərdə Naxçıvan şəhərində anadan olmuşdur. Novruz ağanın Hüseyn Sultan, Mənsur ağa (bu, XX əsrin əvvəllərində Ordubadda yaşayan Mənsur ağa deyil), Hüseynəli bəy, Cəfər ağa, Məmməd Sultan (görkəmli rəssam Bəhruz Kəngərlinin ulu babası) və Məmmədqulu bəy adlı qardaşları da tanınmış hərbçi idi. Məqamındaca qeyd edək ki, Naxçıvanın istər xan, istərsə də bəy Kəngərli süvariləri Kəngərli tayfasının Bilici qoluna mənsubdur. Novruz ağa Naxçıvan xanlığı Rusiya imperiyası tərəfindən işğal edilməzdən əvvəl İran ordusunda hərbi xidmət keçmişdir. Onun hərbi xidməti haqda şahzadə Abbas Mirzə Qacarın 1818-ci ildə imzaladığı fərmanda məlumat vardır. Bu sənəddə onun təqaüd alması qeyd edilmişdir. Novruz ağa 1843-cü ildən etibarən Kəngərli tayfasının rəisi olmuşdur. Çar Rusiyasında olan xidmətlərinə görə Novruz ağaya verilən imtiyazlar Naxçıvan xanlarına verilənlərə eynidir.

1831-ci ildə yazılan kameral siyahıdan məlum olur ki, İsmayıl ağa 1820-ci ildə Naxçıvanda doğulmuşdur. Həmin sənəddə onun qardaş və bacılarının da adları yazılmışdır: Məmməd ağa (10 yaşında), Qara bəy (8 yaşında),



İsmayıl ağa Kəngərli

İskəndər bəy (7 yaşında), Mahmud ağa (4 yaşında), Əbülfət ağa (1 yaşında), Behbud bəy (1 yaşında), Xanımcan xanım (12 yaşında), İmmi xanım (12 yaşında), Töhfə xanım (8 yaşında), Bəyimcanbəyim (2 yaşında), Güllübəyim (1 yaşında).

Novruz ağanın iki həyat yoldaşının adı qeyd edilmişdir: Səkinə xanım və Xeyrənsə xanım. İsmayıl ağanın anası Səkinə xanım I Ehsan xanın qardaşı Fərəc ağanın qızı idi.

Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində tapılan sənədlərdə Novruz ağanın daha 5 oğlunun da varlığı ortaya çıxmışdır: Cahangir ağa, Möhsün Sultan, Kərim ağa, Xandəmir ağa və Xanmirzə ağa. İsmayıl ağanın həlalikdə şəxsi xidmət kitabçası tapılmadığından onun harada təhsil alması haqqında ətraflı heç nə deyə bilmirik. Amma 1843-cü ildə yazılan arxiv sənədindən məlum olur ki, İsmayıl ağa Polşanın Varşava şəhərindəki Zaqafqaziya müsəlman süvari polkuna naiblik etmişdir. Digər arxiv mənbələri də bunu təsdiqləyir. 1843-cü ildə Novruz ağanın qraf İ.Paskeviçə yazdığı məktubda deyilir ki, qardaşı Hüseyn Sultan çox döyüşlərin iştirakçısı olmuşdur. O qeyd edir ki, öz oğlu İsmayıl ağanı qraf İ.Paskeviçin yanına göndərir. Xahiş edir ki, qraf İ.Paskeviç gənclərə təmənnasız yardım etsin. Digər bir sənəd isə general-mayor I Ehsan xana aid olan sənəddir. I Ehsan xan yazır: “Onun atası Novruz ağa tayfanın vəkilidir, oğlu isə süvari döyüşçülərin vəkili təyin edilsin”. Qraf İ.Paskeviç də I Ehsan xanın yazdıqlarını nəzərə alaraq İsmayıl ağanı Varşavada süvari döyüşçülərin polkuna vəkil təyin etmişdir.

İsmayıl ağa 1865-1867-ci illərdə İrəvan bəy komissiyasının Naxçıvan qəzası üzrə üzvü olmuşdur.

Kameral təsvirlərdə İsmayıl ağanın Şahbaz ağa (1860), Sultan ağa, Cümşüd paşa, Səlim bəy, Yusif paşa, Yaqub paşa, Cavid ağa, Əlimədət ağa, Fatma xanım, Cavahir xanım, Əzizə xanım və Bilqeyis xanım adlı övladları qeyd edilmişdir.

İsmayıl ağa ömrünün çox illərini Naxçıvanda yaşamışdır. Onun malikanəsi XIX əsrin ən gözəl memarlıq tikililərindən biridir. İndiyədək Naxçıvanda qalmaqdadır. Hətta 1935-ci ildə hərbi şərqşünas, kəşfiyyatçı K.N.Smirnov Naxçıvanda uzunmüddətli ezamiyyətdə olarkən o evdə yaşamış və məşhur “Kəngərli arxivi”ni (350-dən çox sənədi) Tiflisə aparmışdır. K.N.Smirnovun yazdıqlarından məlum olur ki, o, bu arxivi İsmayıl ağanın oğlu Şahbaz ağadan almışdır. Araşdırmalar göstərir ki, 1935-ci ildə həmin malikanədə Cümşüd paşanın oğlu Əliqulu Sultanov əmisi Şahbaz ağa ilə birlikdə yaşayırmış. Əliqulu Sultanov Naxçıvanın maarifpərvər ziyalılarından idi. O, ixtisasca iqtisadçı olsa da, hələ çar Rusiyası hakimiyyəti illərində Naxçıvanda teatr tamaşalarının səhnəyə qoyulmasına maddi və mənəvi köməklik etmişdir. Yeri gəlmişkən, indi o malikanəyə “Şahbaz ağanın evi” deyirlər. Əliqulu Sultanov XIX əsrin əvvəllərində Gürcüstanda yaşamış və Siqnaxi dəmir yolunun çəkilişində iştirak etmişdir. Sonralar, yəni 1920-ci ildən sonra Naxçıvan şəhərində yaşamışdır.

Arxiv sənədlərindən məlum olur ki, İsmayıl ağa Rusiya ordusunda tanınmış hərbçi olmuşdur. Bir çox sənədlərdə onun podpolkovnik və ömrünün sonlarına yaxın polkovnik rütbəsində olduğu haqda məlumatlar var. İsmayıl ağanın şəxsi işinin, yəni formulyar xidmət kitabçasının axtarışı davam etməkdədir. 1891-ci ilə aid məhkəmə sənədlərinə əsasən, onun vəfat etməsinin tarixinin, təxminən, 1887, yaxud 1888-ci ilə aid olduğunu müəyyənləşdirdik.

Burada fotoşəkillə bağlı bir məsələyə toxunmağı çox vacib bilirik. Çünki bu fotoşəkillə bağlı bizə çoxlu müraciətlər vardır. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin fondunda İsmayıl ağanın fotoşəkli saxlanılır. Şəklin arxasında onun İsmayıl ağaya mənsub olduğu Şahbaz ağanın oğlu Şükür ağa tərəfindən yazılmışdır. Bu haqda ətraflı yazılar çap etdirsək də, indi nəşr edilən kitabların çoxunda bu fotonun general İsmayıl xan Naxçıvanskiyə aid olduğunu yazırlar. Bu, çox yanlış məlumatdır. Çünki tarix ehtimal faktlarla yazılmır və fotoşəkli də gümanla kiməsə aid etmək olmaz. Şükür ağa babasının fotoşəklinin çəkilmə tarixini 1826-cı il yazsa da, bu, mümkün deyil. Ona görə ki, həmin il İsmayıl ağanın 6 yaşı vardı. Fotoşəklə diqqətlə baxanda görürük ki, hərbi çin onun geydiyi çuxanın birbaşa üstünə tikilmişdir. Rusiya ordusunda bu hal kazak süvari dəstələrinə məxsusdur. Qeyd edək ki, Kəngərli süvari dəstəsinin də Rusiya ordusunda hərbi geyimində qayda onlara uyğun idi. Bir də polisdə işləyənlərin hərbi çinləri birbaşa çuxaya tikilirdi. Fotoşəkildən görünür ki, İsmayıl ağa Rusiya ordusunda, yaxud polisdə praporşik olarkən bu fotonu çəkdirmişdir. Onun xidmət kitabçasını tapandan sonra bu məsələyə tamamilə aydınlıq gətirmək mümkün olacaq.

Şükür ağa fotoşəklin arxasını rusca yazmışdır. Biz onun yazdığı avtoqraflı fotoşəkli olduğu kimi çap edirik. Maraq üçün deyək ki, İsmayıl ağa general İsmayıl xanın qaynıdır. Onun bacısı Xanımcan xanım İsmayıl xanın həyat yoldaşı olmuşdur.

Araşdırmalar göstərir ki, Lütfəli Sultan Kəngərlinin varisləri, yəni Novruz ağanın oğlanları hərb tarixinin zənginləşməsi üçün böyük işlər görmüş və Naxçıvanı ləyaqətlə təmsil etmişlər.

Bilici Kəngərlilərdən olan naxçıvanlı yazıçı, jurnalist və vəkil Eynəli bəy Sultanovun (Kəngərli) 1902-ci ildə Tiflisdə nəşr edilən “Novoye obozreniye” (“Yeni icmal”) qəzetində (№ 6078, 6079) “Novruz ağa” adlı hekayəsi çap olunmuşdur. Sənətkarlıq baxımından çox maraqlı hekayədə Novruz ağa və onun varislərindən söhbət açılır.

Yazıçı Eynəli bəy Sultanov hekayəyə epiqraf kimi rus şairi M.Y.Lermontovun məşhur “Borodino” şeirindən bir misrasını seçmişdir: Da, bılı lyudi v naşe vremya (“Bəli, bizim zəmanədə kişilər var idi”).

***Yüzilliklər gəlib keçəcək, gələcək nəsillər də naxçıvanlı hərbçiləri, o cümlədən Novruz ağanı, İsmayıl ağanı və onların varislərini ehtiramla yad edəcəklər. Çünki onlar da ulu babaları kimi Naxçıvan naminə döyüşüb ad-san qazanmışlar.***

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

# Naxçıvanda yeni qaya işarələri aşkara çıxarılıb

***Bu yaxınlarda Culfa rayonunun Ərəfsə kəndi yaxınlığında aparılan araşdırmalar zamanı qaya işarələri aşkar olunmuşdur. Naxçıvanda ilk dəfə aşkar olunan bu işarələrin bənzərlərinə Araz çayından cənubda və Şərqi Anadoluda rast gəlinmişdir.***





Məlum olduğu kimi, Urartular Naxçıvan ərazisini işğal edə bilməsələr də, buraya dağıdıcı yürüşlər təşkil etmişlər. Naxçıvanın qədim sakinləri bu yürüşlərin qarşısını almaq üçün möhtəşəm qalalar inşa etmişlər. Sədərək qalası, Oğlanqala, Qarasu qalası, Qız qalası Urartuların qərbdən və Arpaçay vadisindən edilən hücumlarının qarşısını almışdır. Bu istiqamətdə müqavimətə rast gələn düşmən qüvvələri öz hücumlarını Əlincəçay vadisindən gerçəkləşdirmək istəmişlər. Naxçıvana daxil olan yolları Qazançıqala kimi möhtəşəm qala qoruyurdu. Qaya işarələri Qazançıqala yaxınlığında aşkar olunmuşdur. Geniş bir coğrafiyada yayılan qaya işarələrinin anlamı tam açılmasa da, tədqiqatçılar bu işarələrin müəyyən mərasimlərin icrası və qurbankəsmə ilə bağlı olduğunu bildirmişlər. Belə nəticəyə gəlmək olar ki, Qazançı qalasına hücuma hazırlaşan Urartular Ərəfsə kəndi yaxınlığında dayanaraq qurbankəsmə mərasimi keçirmişlər. Qədim dünyanın bir çox xalqlarında daş dəyişməyən, yenilənməyən əbədi dünyanın simvolu olmuşdur. Qaya işarələrinin də qazılması dini inanclarla bağlı olub, onlara uğur gətirməliydi. Lakin Culfa rayonunun köhnə Xoşkeşin kəndi yaxınlığında Urartu kralı Menuaya (e.ə. 810-786) aid kitabə bu yürüşün uğursuzluğundan xəbər verir. Qələbə çala bilməyən Menua Ərəzin kəndindən keçərək Arazın cənubunda Pluadi adlı yerdə Urartuların baş tanrısı Xaldinin şərəfinə qala və məbəd tikdirir, qurban kəsdirir. Urartu krallarının dağıdıcı yürüşlərinə baxmayaraq, onlar heç vaxt bu ərazini işğal edə bilməmişlər. Baş tanrının şərəfinə Naxçıvanda deyil, Arazın cənubunda qala və məbəd tikdirilməsi onların bu ərazidə möhkəmlənə bilmədiyini təsdiq edir. Urartuların Naxçıvanda məskunlaşması ilə bağlı heç bir epiqrafik və arxeoloji dəlil yoxdur.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

# Praktik səyyari təkmilləşdirmə kurslarına start verilib

*Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun praktik səyyari təkmilləşdirmə kurslarına start verilib.*

İnstitutun cari tədris ili üçün təqvim planına uyğun olaraq ilk tədbir “Ginekoloji xəstəliklər, onların diaqnostikası, müalicəsi və profilaktikası” mövzusuna həsr edilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun dosenti Reyhanə Hacıyeva çıxış edərək ölkəmizdə ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasının dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirib, son illər bu sahədə görülən mühüm tədbirlərdən danışıblar.

Qeyd olunub ki, “Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı ana və uşaqlara tibb xidməti göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb.

Son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

Bildirilib ki, hazırda reproduktiv sağlamlıq və ailə planlaşdırılması problemlərinə nəzarət daha da gücləndirilib, səhiyyə maarifi işləri günün tələbləri səviyyəsində qurulub. Hamiləliyin süni pozulması hallarının qarşısının alınması üçün geniş tədbirlər və nəzarət həyata keçirilir. Hamiləliyin erkən qeydiyyata alınması, onlara göstərilən patronaj xidmətinin daha da yaxşılaşdırılması, bütün doğuşların xəstəxanada idarə olunması işinə nəzarət daha da gücləndirilir. Hamilələrin qeydiyyatı işinin daha da yaxşılaşdırılması məqsədilə mama-ginekoloji şöbələrdə hamilələrin elektron reyestri yaradılır. Doğuşların idarə olunmasında bütün mama-ginekoloqların yüksək peşəkarlığına nail olunması, doğuş və doğuşdan sonrakı ginekoloji ağırlaşmaların qarşısının alınması tədbirləri vaxtında həyata keçirilir. Ginekoloji xəstəliklərin vaxtında aşkar edilməsi, müalicə işinin düzgün və səmərəli qurulması üçün profilaktik müayinə tədbirləri daha da gücləndirilir.

Muxtar respublikanın tibb müəssisələrində çalışan həkim mama-ginekoloqların, anestezioloq-reanimatoloqların, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsi tələbələrinin iştirak etdikləri tədbirdə müzakirələr aparılıb, suallar cavablandırılıb.

Təkmilləşdirmə kursu həftə boyu davam etdiriləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

**Buranı "Əyləncə adası" adlandırırlar. Ətrafı su ilə əhatə olunmasa da, bu "ada"nın hər kəs, xüsusilə uşaqlar üçün əsl əyləncə məkanı olduğunu bilməyənlər çox az olar. Vaxtilə müxtəlif məqsədlər üçün istifadə edilmiş, son illərdə isə yararsız vəziyyətə düşmüş bu ərazi indi şəhər əhalisinin mövsümdə ən çox üz tutduğu ünvanlardan birinə çevrilib. Söhbət Naxçıvançay vadisində salınmış və 2014-cü ildə əhalinin istifadəsinə verilmiş Əyləncə və İstirahət Mərkəzindən gedir.**



# Əyləncə və İstirahət Mərkəzi

## Naxçıvançay vadisindəki bu məkanda şəhər sakinləri üçün hərtərəfli şərait yaradılıb

Qeyd etmək lazımdır ki, bu istirahət mərkəzi yerləşdiyi mövqeyə görə Naxçıvanın şəhər infrastrukturunda əhəmiyyətli rol oynayır. Naxçıvan şəhərinin mərkəzi ərazilərində müxtəlif istirahət parkları və əyləncə məkanları olsa da, bu mərkəzin yaradılması bir çox əlverişli tərəfləri ilə seçilir. Belə ki, Əyləncə və İstirahət Mərkəzi digərlərindən ərazisinin böyüklüyü, dayanacaq probleminin olmaması, fərqli istirahət və əyləncə bölmələrinin mövcudluğu, müxtəlif attraksionlara malik olması ilə diqqət çəkir. Qeyd edək ki, ərazisindən çay axan şəhərlərin inkişafında çayboyu müxtəlif istirahət və turizm infrastrukturu obyektlərinin yaradılması təcrübəsi uzun illər Naxçıvanımız üçün də gözlənilən idi. Digər tərəfdən hava limanından Naxçıvan şəhərinə gələn qonaqlarda ilk təəssüratın gözəl bir mənzərə ilə başlaması, düşünürük ki, hər bir naxçıvanlı üçün qürurvericidir.

Hazırda mərkəz şəhər sakinlərinin, eləcə də bura gələn qonaqların mənalı istirahətinin təşkilində əhəmiyyətli rol oynayır. Ümumi sahəsi 38 min kvadratmetr olan mərkəzdə 200-ə yaxın işçi çalışır. Ərazidə inşa edilmiş ikimərtəbəli binanın birinci mərtəbəsində dünyanın tanınmış geyim firmaları məhsullarının satıldığı mağaza, 2 kafe və sahəsi 1230 kvadratmetr olan örtülü oyun salonu yerləşir. Oyun salonunda uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün müasir oyun avadanlıqları quraşdırılıb.

Binanın ikinci mərtəbəsində isə yerli və xarici mebel dəstləri, çılçıraq və pərdə satışı bölmələri fəaliyyət göstərir. Əyləncə və İstirahət Mərkəzinin həyətində isə 33 metr hündürlüyündə 24 kabinəli 144 yerlik karusel, 8 yerlik 120 dərəcəli yelləncək, uşaq maşınları, qatar və uşaqlar üçün nəzərdə tutulmuş 4 idman qurğusu vardır. Burada 1 fəvvarə və 4 hovuz yaradılıb. Həmçinin ərazidə böyüklər üçün kafe və peyntbol meydançası da fəaliyyət göstərir. Bu günlərdə mərkəzin həyətində yeni səhnə də qurulub ki, bu da mövsüm ərzində müxtəlif konsert proqramlarının təşkilinə imkan verəcək.

Qeyd edək ki, artıq havaların isinməsi ilə mərkəzə gələnlərin sayı da artır. Xüsusilə axşam saatlarında qələbəlik daha çox nəzərə çarpır. Bura üz tutanlar içərisində uşaqlarla bərabər, təbii ki, böyüklər də az deyil.

Naxçıvan şəhər sakini Mustafa Bağırov öz ailəsi ilə bura gəlib. Yaradılmış şəraitdən ağızdolusu danışır: "Ötən il ailəmizlə mütəmadi olaraq bura gəlirdik. Bu il isə birinci dəfədir. Buranı seçməyimizdə uşaqların təkidi müəyyən rol oynasa da, bizim üçün də sərfəlidir. Çünki avtomobili saxlamaq üçün geniş əraziyə malik dayanacaq var, bağlı və açıq məkanlarda ailəliklə oturub çay, kofe və yaxud sərin içkilər içmək, söhbət etmək imkanı yaradılıb. Belə bir istirahət məkanını yaradanlara minnətdarlığımızı bildiririk".

Səmənnaz Sadiqova isə iki azyaşlı nəvəsi ilə bura gəldiyini bildirir: "Yaxınlıqda yaşayırıq. Ona görə də mövsümdə tez-tez bura gəlirik. Burada balacaların əylənməsi üçün çox gözəl şərait yaradılıb. Bizim vaxtımızda harada idi belə gözəl məkanlar, oyun avadanlıqları? İnanın, bizim üçün yeganə əyləncə televizora baxmaq idi, o da maraqlı bir proqram olanda. Hələ mən gənclik illərimi nəzərə alıb bunu deyirəm. O zaman çox ailələrdə heç televizor yox idi. Ancaq indi uşaqların əylənməsi üçün nələr düşünülməyib? Bizimkilər (əli ilə yaxınlıqdakı nəvələrini göstərir) buradakı oyun avadanlıqlarının hər birinin funksiyası haqqında elə danışırlar ki, elə bil bunları özləri ixtira ediblər".

Bir az aralıda isə balacaların qatarda gəzintisini mobil telefonun yaddaşına köçürən Fəxri Məmmədovla tanış oluruq. Babək rayonundan gəldiyini söyləyir. Deyir ki, ötən il mövsüm boyu mütəmadi olaraq ailəliklə bura gəlmişik. Uşaqlarımız buranı çox sevirlər. Hətta ötən il aldığım kartı da saxlayıblar. (Üzərində "Əyləncə adası" yazılmış plastik kart ərazidəki attraksionlardan istifadə üçün nəzərdə tutulub). Müsahibimiz, yeri düşmüşkən, bu plastik kartın üstünlüklərinə də toxunur. Bildirir ki, istirahət mərkəzində istifadə olunan bu kartın özəlliyi ondadır ki, kartla ödənişlərin edilməsi vaxt itkisinin qarşısını alır. Həm də ödəniş zamanı kiçik pul problemi ilə qarşılaşmırsan. Ərazidə fəaliyyət göstərən mağaza və kafelərin fəaliyyətindən danışan həmsöhbətimiz deyir ki, bəzən elə olur vaxt azlığından ailə üzvləri ilə birlikdə geyim və yaxud məişət əşyalarının satıldığı ticarət obyektlərinə gedə bilmirsən. Burada isə, əksinə, istirahətlə birlikdə bu imkandan da yararlana bilirsən. Bir sözlə, bu istirahət mərkəzində uşaqlar üçün də, böyüklər üçün də çox gözəl şərait yaradılıb. Bu işdə zəhməti olanlara "sağ ol" deyirik.

Bəli, Əyləncə və İstirahət Mərkəzində görüşüb söhbətləşdiyimiz hər kəs burada yaradılmış şəraitdən razılıq etdi. Bu məkanın təkcə uşaqlara deyil, böyüklərə də xoş təsir bağışladığını bildirdi. Söhbətləşdiyimiz insanlar şəhər sakinləri üçün yaradılmış bu şəraitdən, Naxçıvançay boyu açıq ərazinin təmiz havasından, göstərilən xidmətdən, təhlükəsizlik tədbirlərindən məmnunluqla danışdılar. Burada olduğum müddətdə bir nüans da nəzərimdən yayınmadı: vaxtilə dövrün diktə etdiyi şərait və imkanlardan dolayı öz uşaqlığını yaşaya bilməyən yaşlı sakinlər də sanki bu gün balacaların gözündə həmin dövrü yenidən yaşayırdılar...

**Səbuhi HƏSƏNOV**

# Naxçıvan Avropa çempionatı iştirakçılarının gözü ilə

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən veteran ağır atletlər arasında 26-cı kişilər və 24-cü qadınlar Avropa çempionatı davam edir. Qitə birinciliyində iştirak edən veteran idmançılarla söhbətləşdik.***



*Bill BARTON (Avropa Veteran Ağır Atletlər Komitəsinin prezidenti):* – Yenə Naxçıvanda olmaq, burada tanış simaları görmək, onların əlini sıxmaq bizi qürurlandırır. İlk olaraq mən Avropa çempionatının bizə gözəl diyarda keçirilməsində bizə köməklik göstərən və təklifimizi müsbət dəyərləndirən muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm. Artıq üçüncü dəfədir ki, Naxçıvana gəlirəm. Qitə çempionatının Naxçıvanda keçirilməsinin əsas səbəblərindən biri yaradılan şəraitdir. İdmançıların rahatlığı, onların məşq etmələri, yarışlara hazırlaşması, otellərə kimi avtomobillə aparılması, qısa olaraq, onların əziyyət çəkməməyi üçün hər bir şərait yaradılıb. Naxçıvanda təşkil olunan yarışlarda çıxış edən idmançılar hər zaman bu şəhərdən razı qalıblar. İndi bizim, həmçinin keçirilən Avropa çempionatı iştirakçılarının elə bir yaş dövrüdür ki, onlar qayğı ilə əhatə olunmalıdırlar. Və bunu da gördük. Naxçıvan bizi böyük qonaqpərvərliklə qarşıladı və gələn idmançıları öz həmvətənlərindən ayırmadı.



*Bruno SAVOLDELLİ (Fransa):* – Artıq ikinci dəfədir ki, Naxçıvanda oluram. Çox gözəl və səliqəli şəhəriniz var. Şəhərin hər bir yerini gəzməyə çalışıram. Keçirilən yarışdan sonra gün ərzində daha çox tarixi yerləri və qədim küçələri gəzmək mənə zövq verir. Təbii ki, müasir tikililəri də unutmaq olmaz. Müasir binalar arxitektura baxımından çox mükəmməl dizaynla tikiliblər. Ən çox xoşuma gələn binaların səliqəli şəkildə yola yaxın olmasıdır. Mənə bura vətənimi xatırladır və darıxmıram. Eşidəndə ki, yenə Naxçıvana gedirik, bundan imtina etmədim və təklifi tez qəbul etdim. Yarışın təşkilatçılığına gəlincə, hər şey qaydasındadır. İstər idmançıları qarşılamaq, yerləşdirmək, istərsə də bizimlə rəftar mənə çox xoş təsir bağışladı. Burda daha çox dostluq münasibəti gördüm. Xüsusilə kürsüyə çıxanda tamaşaçıların alqışları məni daha da ruhlandırdı. Artıq medal qazananlar siyahısındayam.



*Yan HİNRİKSEN (İsveç):* – Naxçıvana gələrkən buranın necə şəhər olduğunu çox yaxşı bilirdim. Ancaq gördüklərim məni daha da təəccübləndirdi. Təsəvvür edin, yolla gedirsiz və bir avtomobilin belə, siqnal səsini eşitmirsiniz. Bilirsiniz bu, nə deməkdir? Bu, bir xalqın, bir şəhərin sakinlərinin necə mədəni olduğunu göstərir. Bizim yaşda olan insanlar, adətən, sakit təbiəti sevir və səs-küydən uzaq olmağa çalışır. Avropa çempionatının Naxçıvanda təşkili bu baxımdan təşkilatçıların ən uğurlu seçimidir.

# Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 2 iyun 2016-cı il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 1387,54 kv.m torpaq sahəsində yerləşən 604,28 kv.m ümumi, 192,61 kv.m əsas, 411,67 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi (süd emalı müəssisəsi) | Naxçıvan şəhəri, Əliabad qəsəbəsi | 190.000.00 | 190.000.00 | 9.500.00 |
| 2. | 740,0 kv.m torpaq sahəsində yerləşən 2 mərtəbəli, 4 otaqlı, 85,56 kv.m yaşayış, 37,0 kv.m qeyri-yaşayış, 216,07 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, V.Qasımov küçəsi | 98.000.00 | 98.000.00 | 4.900.00 |
| 3. | Ümumi sahəsi 401,0 kv.m olan tikinti materialları mağazası | Naxçıvan-Şərur yolunun Xalçaçılıq Kombinatına gedən yolla kəsişdiyi yer | 122.000.00 | 122.000.00 | 6.100.00 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun AZ 61 NABZ 12380900000000202944 nömrəli hesabına 27 may 2016-cı il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ 12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- fonda ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 2 iyun 2016-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

# Naxçıvanda futbol turniri keçiriləcək

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futbol üzrə turnir keçiriləcək.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Peşəkar Futbol Liqası və Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının birgə keçirəcəyi turnir Azərbaycanda ilk dəfə olaraq təşkil edilir. May ayının 25-dən 27-nə kimi davam edəcək turnirdə 4 komanda mübarizə aparacaq. Belə ki, geridə qoyulan mövsüm Azərbaycan Birinci Divizionunun qalibi "Neftçala", həmçinin bu liqada çıxış edən MOİK, "Şərurspor" və Naxçıvanın "Araz-Naxçıvan" komandaları turnirdə birincilik uğrunda meydana çıxacaqlar. Turnirə Naxçıvan Muxtar Respublika Stadionu ev sahibliyi edəcək.

Dünən "Heydər Əliyev kuboku" uğrunda turnirin püşkatma mərasimi keçirilib. Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında təşkil edilən püşkatmanın nəticəsinə əsasən, görüşlər olimpiya sistemi üzrə keçiriləcək. Bu gün saat $14^{00}$-da turnirin açılış mərasimi olacaq və turnirin ilk oyunu saat $15^{00}$-da başlayacaq. İkinci görüş isə saat $18^{00}$-da oynanılacaq. Bu görüşlərdən qalib ayrılan komandalar finalda, məğlub olanlar isə üçüncü yer uğrunda görüş üçün meydana çıxacaqlar. Üçüncü yer uğrunda görüş mayın 27-də saat $14^{30}$-da, final görüşü isə saat $17^{30}$-da başlayacaq. Görüşlərdən sonra qaliblərin mükafatlandırma mərasimi keçiriləcək.

Qeyd edək ki, keçiriləcək görüşləri Peşəkar Futbol Liqası tərəfindən təyin edilmiş hakimlər briqadası idarə edəcək.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Qənbərov Ziya Cavanşir oğlunun adına olan 0200578692 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Novruzov Camal Fərman oğlunun adına olan 0200315892 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 398